*UOT 37.01*

***Məhəbbət Novruz qızı Paşayeva***
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*baş mütəxəssisi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0003-1982-9276*
*E-mail: pmahabbat@mail.ru*

# ALİ MƏKTƏBDƏ TƏHSİLİN TƏŞKİLİ VƏ MÜASİR TENDENSİYALAR

***Makhabbat Novruz Pashayeva***
*chief specialist of the Institute of Education of the Republic of Azerbaijan,*
*doctor of philosophy in pedagogy*

# ORGANIZATION OF TRAINING IN HIGHER EDUCATION AND MODERN TRENDS IN EDUCATION

***Махаббат Новруз гызы Пашаева***
*старший специалист Института Образования*
*Азербайджанской Республики*
*доктор философии по педагогике*

# ОРГАНИЗАЦИЯ ОБУЧЕНИЯ В ВЫСШЕЙ ШКОЛЕ И СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ В ОБРАЗОВАНИИ

**Xülasə.** Məqalədə universitetin işinin Boloniya prosesinin tələblərinə uyğunluğu problemi, mühazirə və seminar dərslərinin keyfiyyətinin artırılması zərurəti qaldırılır. Kurikulumların və fənn proqramlarının düzgün tərtib edilməsinin vacibliyi vurğulanır. Tələbələrdə təfəkkür fəallığının inkişafına, onların təlim prosesinə cəlb edilməsinə və öyrənilən fənnə maraqlarının artmasına kömək edən metodların istifadə yollarından bəhs edilir. Bloom taksonomiyasından istifadə edərək, tələbələrin yaradıcılıq fəaliyyətini inkişaf etdirən qrup işi üçün tapşırıq nümunələri verilir. Pedaqogika və Antropologiya fənlərinin tədrisi nümunəsində universitetdə interaktiv təlim metodlarının tətbiqi yolları açıqlanır.
***Açar sözlər:*** *Bolonya prosesi, seminar və mühazirə məşğələləri, pedaqogika, Antropologiya, Blum taksonomiyası, universitet proqramları, fənn proqramı*

**Abstract.** The article raises the problem of the university's compliance with the requirements of the Bologna process, the need to increase the effectiveness of lectures and seminars at the university. The importance of the correct compilation of curricula and subject syllabuses. The use of methods that promote the development of students’ thinking activity, their involvement in the educational process and increase their interest in the subject being studied. Examples of tasks for group work are given, using Bloom's taxonomy, developing students' creative activity. The ways of interactive learning in a university are revealed using the example of teaching the subjects Pedagogy and Anthropology.
***Key words:*** *Bologna process, seminar and lecture classes, pedagogy, Anthropology, Bloom's taxonomy, university programs, subject syllabus*

***Аннотация.*** В статье поднимается проблема соответствия работы ВУЗ-а требованиям Болонского процесса, необходимости повышения эффективности лекционных и семинарских занятий в ВУЗ-е. Важность правильного составления учебных программ и предметных силабусов. Использование методов, способствующих развитию мыслительной активности студентов, вовлечению их в учебный процесс и повышающих их интерес к изучаемому предмету. Даются образцы заданий для работы в группах, используя таксономию Блума, развивающих творческую активность студентов. На примере преподавания предметов Педагогика, Антропология раскрываются пути интерактивного обучения в ВУЗ-е.
***Ключевые слова***: *Болонский процесс, семинарские и лекционные занятия, педагогика, Антропология, таксономия Блума, программы ВУЗ-ов, предметный силабус*

Müasir dövrdə Azərbaycan özünün təhsil sistemini dünyanın mütərəqqi ölkələrinin təhsil nailiyyətlərindən istifadə etməklə təkmilləşdirir, məzmun və struktur dəyişiklikləri aparır, yeni təlim metodlarının mahiyyətini, təlimə təsirini, tətbiqi yollarının araşdırılması istiqamətində fəaliyyətini qurur.

Artıq kurikulum islahatı təhsilin bütün pillələrini demək olar ki əhatə edir. Ali təhsil müəssisələri hər bir ölkənin inkişafında və tərəqqisində mühüm rol oynayır. Yüksək ixtisaslı mütəxəssis hazırlamaq Ali məktəbin üzərinə düşür. Ona görə bu pillə təhsil sahəsində xüsusi yer tutur və xüsusi diqqət tələb edir.

Ali məktəblərdə kurikulum islahatının tətbiqi tədris planlarının yeni forma və məzmununda, yeni fənn silabuslarının hazırlanmasında öz əksini tapır. Tədris planı üzrə öyrənilən fənnin proqramı yazıldıqda, ona bütün didaktik prinsiplər şamil olunmalıdır. Fakültədən, ixtisasdan asılı olaraq bir fənnin proqramı fərqli, variativ tərtib edilməlidir. İxtisasın bütün aspektlərinə toxunulmalıdır, müasir problemlər orada öz əksini tapmalıdır.

Vacib məqamlardan biri fənn silabusunun müvafiq proqrama uyğun olmasıdır. Bəzən ali məktəb müəllimləri bu məqama fikir vermir və bunun nəticəsi kimi tədrisdə problemlər meydana çıxır, silabuslar çox vaxt formal yazılır. Razılaşmaq lazımdır ki, ali məktəb silabusunun yazılışı asan məsələ deyil, lakin buna ciddi yanaşmaq, fənn silabuslarını dərs bölgüsündən sonra, dərslər başlamazdan qabaq yazıb, üzərində işləmək lazımdır.

Fənn proqramında xırdalıqlar, demək olar ki hər bir problem öz əksini tapır, lakin həmin fənnin silabusunda bu məsələlər çox vaxt öz əksini tapmır, mövzular ümumiləşdirilir, açılışında əhatəsi vacib olan məsələlər açıqlanmır. Bu fənn üzrə imtahan suallarının, biletlərinin yazılışında problem yaradır, müəllimin işində çətinlik yaradır və haqlı olaraq tələbələrin narazılığına səbəb olur.

Beləliklə hər fənn üzrə fənn proqramı, fənn silabusu, imtahan sualları və imtahan biletləri arasında bir vəhdət yaradılmalıdır. Buna Fakültə üzrə Metodik Şura çox ciddi yanaşmalı və bu işin icrasına nəzarət etməlidir, müəllimlərə yardım etmək üçün seminarlar təşkil oluna bilər.

Belə olduqda ali məktəbdə təlim prosesi düzgün təşkil edilər və bir çox didaktik tələblərin tətbiqi asanlaşar.

Ali məktəblərdə kurikulum islahatının tətbiqi istifadə olunacaq tədris metodlarında da öz əksini tapmalıdır. Mühazirə, seminar dərsləri, müstəqil işlərin hazırlanması metodikası Bolonya sisteminin qoyduğu tələblərə, yeni kurikulum islahatına cavab verməlidir.

Bolonya prosesi – milli ali təhsil sistemini müasirləşdirmək imkanı deməkdir. Müasir dövrdə təhsil sistemində islahata böyük ehtiyaclar vardır.

Beynəlxalq təcrübədə belə islahatlar aşağıdakı istiqamətlərdə müasirləşdirilməsini nəzərdə tutur: təhsilin məzmununda, təhsilin strukturunda, təhsil texnologiyalarında, resurs təminatında.

Hazırda dünya təcrübəsində təhsil proqramlarının həyata keçirilməsində ümumi əmək intensivliyinin və təhsilin keyfiyyətinin ölçüsü kimi çıxış edən kredit sistemləri adlanan sistemlərdən istifadə olunur.

Bu sistemlərdən ən çox yayılmışı Birləşmiş Ştatlar Kredit Sistemidir (USCS), Britaniya Kredit Toplama və Köçürmə Sistemi (CATS), Avropa Kredit Köçürmə Sistemi (ECTS) və Universitetlərin Asiya- Sakit Okean Kredit Köçürmə Sistemidir (UCTS).

Bolonya təhsil prosesinin əsası olan Avropa Kredit Köçürmə Sistemi (ECTS) tələbənin akademik mobilliyi üçün zəruri olan ümumi təhsil ölçüsünü seçməyə imkan verən bir vasitə kimi yaradılmışdır.

Apardığımız tədqiqat təhsil texnologiyaları sahəsinə və təhsilin məzmunu sahəsinə aid edilir, pedaqogika fənninin tədrisində seminar və mühazirə məşğələlərinin maraqlı və müasir qurulmasına, tələbənin dərs prosesinə cəlb edilməsi, aktivləşdirilməsi və iştirakını təmin edən üsul, metod və yollarına həsr edilmişdir.

Ənənəvi seminar dərsləri tələbənin əsasən evə verilən suallar və ədəbiyyat əsasında konspekt hazırlayıb növbəti dərsdə çıxış etməyini nəzərdə tutur.

Müasir seminar dərslərini interaktiv təşkil etmək vacib məsələlərdən biridir. Bu tələbənin fənnə, dərsə, mövzuya marağını artırır. Lakin bunu ənənəvi seminar dərslərinin parallel aparılması ilə etmək məqsədəuyğundur.

Məsələn dərsdə qrup işinin təşkili aşağıdakı kimi aparıla bilər.

Qrup (sinif) yarımqruplara bölünür. Hər bir yarımqrupa tapşırıq verilir və bu yarımqruplarda tədqiqat işi gedir (15-20 dəqiqə), sonra

qrup işlərinin təqdimatı keçirilir, tələbələr qiymətləndirilir.

Qrup işi zamanı istifadə ediləcək tapşırıqlar aşağıdakı kimi verilə bilər.

Tapşırıqlar nümunəsi:

I tapşırıq: Pedaqogika fənninə aid bütün auditoriyaya (böyük qrupa) tapşırıq: keçilən mövzuları əhatə edən 10 termin yazmaq və onların mənasını açıqlamaq.

II tapşırıq: bütün auditoriyaya (böyük qrupa). Benjamin Blumun taksonomiyasına əsaslanaraq Pedaqogika fənninə aid keçilən mövzulara 3 sual tərtib etmək: hafizə sualı, təhlil sualı və qiymətləndirmə sualı.

III tapşırıq: Pedaqogika fənninə aid bir açar söz müəyyənləşdirmək və onu Klaster üsulu ilə şaxələndirmək (cütlərdə iş).

IV tapşırıq: Aşağıdakı pedaqoji proses və anlayışlara aid Venn diaqramı tərtib edin və müqayisəli doldurun: təlim-tərbiyə, pedaqogika-psixologiya, kiçik məktəb yaşı dövrünün xüsusiyyətləri – böyük məktəb yaşı dövrünün xüsusiyyətləri, məktəb psixoloqu – məktəb direktoru, uşaq evində məktəbli – tam ailədən olan uşaq məktəbdə.

V tapşırıq: Ənənəvi seminar dərsi keçildikdə qrup tələbələrini aktivləşdirmək məqsədi ilə, fikirlərini dərsə cəlb etmək məqsədi ilə tələbə seminar sualına cavab verərkən müəllim auditoriyaya tapşırıq verir: “Danışılan mövzuya aid bir sual hazırlayın”. Çıxışdan sonra tələbələr tərəfindən hazırlanan suallar dinlənilir. Bu tələbələrin çıxışı nə dərəcədə diqqətli dinlədiyini göstərir.

VI tapşırıq. “Sinifdənxaric işlərin məktəbdə təşkili və sinif rəhbərinin işi” mövzusu keçildikdə auditoriya qruplara bölünür və hər qrupa tapşırıq verilir. Bir tədbir planı yazın və tədbirin qısa ssenarisini tərtib edin. Məsələn I qrup – Vətənpərvərlik mövzusuna aid tədbir, II qrup – Estetik tərbiyə, III qrup – Ekoloji tərbiyə, IV qrup – Əmək tərbiyəsi mövzusuna aid tədbir üzrə işləyə bilər.

VII tapşırıq. Blum taksonomiyası üzrə Pedaqogika fənnindən keçilən mövzulara aid üç düşündürücü sual tərtib etmək və bu suallara aid 3 test tərtib etmək. Hər bir testin 5 cavabı və onlardan biri düz olmalıdır. Düz cavabı qeyd edin.

Qiymətləndirmə bal sistemi ilə aşağıdakı meyarlar əsasında aparıla bilər:

- Prezentasiya qabiliyyəti;
- Elmilik
- Verilən tədqiqat sualının tam əhatə edilməsi;
- Orijinallıq
- Yaradıcılıq

Hər meyara maksimum 5 bal verilir

Magistratura pilləsində Pedaqogika fənninə aid olan “Təhsil sistemində marketinq və reklam” fənninin tədrisində seminar məşğələlərinin aparılması zamanı tələbələrə aşağıdakı tapşırıqlar vermək məqsədəuyğundur.

“Təhsildə reklamın tərtibatına verilən tələblər” mövzusu keçildikdən sonra tələbələrə belə bir ev tapşırığı vermək olar: Təhsil sahəsində bir müəssisə seçmək, onun fəaliyyət məqsədini müəyyənləşdirmək və məqsədlərindən birinə aid bir reklam tərtib etmək. Reklamın məzmununa, istifadə edilən şəkillərə, video şəklindədirsə – musiqili müşahidə formatına fikir vermək. Bunu seminar dərsində təqdimat şəklində təqdim etmək. Növbəti seminar məşğələdə tələbələrin prezentasiyaları dinlənilir və meyarlar əsasında qiymətləndirilir.

Müasir tələbə İKT bacarıqlarına kifayət qədər yiyələnmiş olduğundan bu işi çox maraqlı yerinə yetirir və müəllim həm məqsədinə çatır, həm də fənlərarası inteqrasiyadan istifadə edərək tələbələrdə keçilən fənnə yaradıcı yanaşmanı təmin edir, fənnə marağının artmasına səbəb olur.

Tələbələrin işi çox maraqlı alınır və təqdimat zamanı qiymətləndirilir.

Beləliklə ənənəvi seminar dərslərindən fərqli olaraq interaktiv dərs zamanı qrupun bütün tələbələri dərsə cəlb edilir, dərs zamanı aktiv olur, müstəqil düşünür, qərarlar qəbul edir, fikirlərini təqdim edir, yaradıcı, tənqidi düşünür və bir çox digər qabiliyyətlər inkişaf etdirilir. Bunlara təqdimat bacarığı, fikrini lakonik formalaşdırmaq, liderlik bacarığı, yaradıcı, tənqidi və məntiqi düşüncə tərzini və s. aid etmək olar.

Qrup təlimi ilə yanaşı ənənəvi seminar dərsləri də aparmaq vacibdir. Bu mövzu üzrə konspekt tutmaq, suallar üzrə çıxışlar hazırlamaq kimi qabiliyyətlərin inkişafına səbəb olur.

Müasir tələbə beş-on il bundan öncəki həmyaşıdlarından fərqlidir. O daha çevik düşüncəyə malikdir, daha mobil və texnogendir. Ona görə təlimdə ənənəvi yanaşmalar, metodlarla yanaşı müasir metod və texnologiyalardan istifadə etmək zamanın tələbidir, tələbələrin fənnə, gələcək peşələrinə olan marağını artırır, həvəs oyadaraq stimul yaradır.

Ali məktəb üçün nəzərdə tutulan fənn proqramları ixtisasın spesifikasını, müasir problemləri, gələcək peşə sahibinə lazım olan vacib məsələləri əhatə etməlidir.

Məsələn Bakalavr pilləsi üçün Antropologiya (ümumi antropologiya, İPES-B 06) fənninin 75 saatlıq proqramın (45 saat mühazirə və 30 saat seminar dərslərinin) mövzularını aşağıdakı kimi tərtib etmək olar. Proqram sosial elmlər və psixologiya fakültəsinin "psixologiya" 050209 ixtisası üzrə keçilməsini nəzərdə tutur.

1. Antropologiyanın predmeti, vəzifələri, tədqiqat metodları.
2. Antropogenez nəzəriyyələri.
3. İnsanın morfoloji xüsusiyyətləri, morfoloji əlamətlərin təsnifatı.
4. İnsanın əmələ gəlməsi. İlk insanların mümkün olan sistematikası.
5. İnsanın əmələ gəlməsinin paleontoloji dəlilləri.
6. İnsanın əmələ gəlməsinin mono, di və polisentrizm nəzəriyyələri.
7. İnsanın əmələ gəlməsinin sosial aspektləri.
8. İrqlər haqqında əsas anlayışlar.
9. İrqi əlamətlərin öyrənilməsi.
10. İrqşünaslığın əsas konsepsiyaları.
11. Müasir irqlərin təsnifatı.
12. Etnik antropologiya. Azərbaycanın qədim etnosları.
13. Antropoloji tədqiqatların mənbə müxtəlifliyi.
14. İnsan orqanizminin əsas qanunauyğunluqları.
15. Dövrlərlə insanın inkişafının mərhələləri.
16. Bioloji yaş.
17. İnsanın inkişaf tempinin əsas tendensiyaları.
18. Konstitusional antropologiya.
19. Funksional-fizioloji psixoloji antropologiya.
20. Linqvistik antropologiya.
21. Ekoloji antropologiya.
22. Sosial antropologiya.
23. İrqçilik. İrqçiliyə qarşı mübarizə yolları.

"Antropologiya" (ümumi antropologiyanın əsasları) kursunun başlıca məqsədi – tələbələrdə İnsan və onun ümumi antropologiyası, genezisi və irqi-etnik müxtəlifliyi haqqında elmi-nəzəri biliklərin formalaşdırılması, insanı daha dərindən anlama qabiliyyətinin inkişaf etdirilməsidir. İnsanlığın yaranışından müasir dövrə kimi olan inkişaf yolları haqqında aydın təsəvvür yaratmaq, bu sahədə düzgün mövqe formalaşdırmaq kursun əsas məqsədlərini təşkil edir.

Bu baxımdan tələbələrin bilməsi vacib olan məsələlər proqramda öz əksini tapmışdır. Fənlərarası əlaqəyə, yəni inteqrasiyaya geniş yer verilmişdir. Bu kursun digər: "Antropologiya kursu", İnsan Anatomiyası və fiziologiyası, Tarix, Arxeologiya, Coğrafiya, İrqşünaslıq kimi fənnlərlə əlaqəsi yaradılmışdır

Bu proqram üzrə tədris zamanı uğurlu nəticələr əldə edilmişdir. Tələbələrin fənnə olan marağı artmışdır, müstəqil işləmə bacarıqları yüksəlmişdir. Buna tələbələrin müstəqil işlərinin keyfiyyəti, elmiliyi, ciddi yanaşması, məzmunu dəlil ola bilər. Fənnə marağın artması bəzi tələbələrdə ikinci ixtisas kimi "Antropoloq" ixtisasına yiyələnmək həvəsini yaratmışdır.

Ali məktəb müəllimi mövzu üzrə mühazirəni hazırladıqda da ona məsuliyyətli yanaşmalı, mövzunu tam açmalıdır. Mühazirənin məzmunu çox önəmlidir, o müəyyən plan üzrə, ardıcıl, elmi, müxtəlif müəlliflərdən, mənbələrdən, əyanilikdən istifadə edilərək yazılmalıdır, didaktik prinsiplərə cavab verməlidir. Öyrənilən problemə bir neçə aspektdən baxmaq onun məzmununu daha maraqlı edir, tələbələrin marağına səbəb olur.

Ali məktəb müəlliminin işə ciddi yanaşması, öz üzərində işləməsi, işə yaradıcı yanaşması, müasir yeni təlim metodlarından, texnologiyalardan istifadəsi vacib kompetensiyalara aiddir və ali məktəb müəssisələrində tədrisin keyfiyyətinə birbaşa təsir göstərən amillərdəndir.

**Problemin aktuallığı.** Məqalədə açıqlanan problemlər Ali Təhsilin aktual problemlərinə toxunur. Müəllif qeyd edir ki, Ali məktəblərdə kurikulum islahatının tətbiqi istifadə olunacaq tədris metodlarında da öz əksini tapmalıdır. Mühazirə, seminar dərsləri, müstəqil işlərin hazırlanması metodikası Bolonya sisteminin qoyduğu tələblərə, yeni kurikulum islahatına cavab verməlidir.

**Problemin elmi yeniliyi.**

Bolonya prosesi – milli ali təhsil sistemini müasirləşdirmək imkanı deməkdir. Müasir dövrdə təhsil sistemində islahata böyük ehtiyaclar var. Ali təhsil pilləsində yeni təlim texnologiyalarının tətbiqi yollarının araşdırılması və tətbiqi yollarının müəyyənləşdirilməsi problemin elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Müəllif məqalədə interaktiv təlim metodlarının nümunələr üzrə tətbiqi yollarını göstərir. Fənn proqramlarının və silabusların yazılışında öyrənilən fənnin tam əhatə edilməsinin vacibliyini vurğulayır. Ali məktəbdə tədris prosesində yeni təlim texnologiyalarından istifadə, seminar və mühazirə dərslərinin müasir qurulması tələbələrdə oxumağa marağı artırır, motivasiya oyadır və dərsin səmərəsinin yüksəldilməsinə səbəb olur.

## Ədəbiyyat


1. Ali təhsil: Beynəlxalq təcrübə və müasir trendlər. Metodik vəsait. / –Bakı: CN Poligrafiya, –2024. –320 s.
2. Mehrabov, A., Abbasov A., Mahmudov M. Təhsilin modernləşdirilməsinin aktual problemləri / –Bakı: Mütərcim, –2013. –412 s.
3. Şagird nailiyyətlərinin qiymətləndirilnəsinin pedaqoji əsasları. Metodik vəsait / – Bakı: CN Poliqrafiya, –2023. –100 s.
4. Paşayeva M.N., Biologiyanın tədrisində interaktiv təlim metodlarından istifadənin imkanları və yolları. Metodik vəsait / –Bakı: Mütərcim, –2023. –160 s.


**Redaksiyaya daxil olub:** 02.10.2025